

# İqtisadi müstəqilliyin formalaşdırılmasında Ulu Öndərin misilsiz xidmətləri

**Azərbaycanın müstəqil dövlət kimi iqtisadi potensialının artırılmasında Ulu Öndər Heydər Əliyevin xidmətləri misilsizdir. Ümummilli Liderin ölkənin sosial-iqtisadi inkişafına, xüsusilə kənd təsərrüfatı sahəsinə verdiyi önəm bu sahədə böyük irəliləyişlərə zəmin yaratdı. Bunlardan biri də Naxçıvan Muxtar Respublikasının iqtisadi həyatında mühüm əhəmiyyət kəsb edən Vayxır su anbarının tikilib istifadəyə verilməsidir.**

Vayxır su anbarı layihəsi ilk dəfə 1981-ci ildə hazırlanmış, ancaq həmin dövrdə ölkənin büdcə imkanlarının məhdudluğu səbəbindən tikintisi tam başa çatdırılmamışdır. Sovet İttifaqı dövründə böyük infrastruktur layihələrinin maliyyələşdirilməsi mərkəzləşdirilmiş ümumittifaq büdcəsinə bağlı olduğundan yerli səviyyədə belə genişmiqyaslı layihələrin həyata keçirilməsi çətin idi. Ulu Öndərin hakimiyyətə qayıdışı ilə Azərbaycanın iqtisadi müstəqilliyi, xüsusilə kənd təsərrüfatının inkişafı prioritet məsələlərdən birinə çevrildi. Ümummilli Lider muxtar respublikanın kənd təsərrüfatı potensialını artırmaq üçün Vayxır su anbarının tikintisinin tamamlanmasının zəruriliyini vurğulamışdır.

Ulu Öndər Heydər Əliyev 2002-ci il avqustun 13-də Naxçıvana səfəri zamanı layihənin əhəmiyyətini vurğulayaraq bildirmişdir ki, Vayxır su anbarının tikintisi kənd təsərrüfatının su təminatında dönüş nöqtəsi olacaq və muxtar respublikanın iqtisadiyyatını gücləndirəcək: "Naxçıvan Muxtar Respublikasının həyatında bu, indi də böyük rol oynayır. Amma inşaat işləri tam qurtarandan sonra böyük rolu olacaqdır, kənd təsərrüfatı istehsalını artıracaqdır. Ümumiyyətlə, Naxçıvanın su təminatı məsələsi biryolluq həll olunacaqdır. Ona görə də mən bu layihənin həyata keçirilməsini öz nəzarətimə götürdüm. Amma gördüm ki, bu məsələ mənim nəzarətimlə həll olunmur. Təşəbbüsü öz üzərimə götürdüm ki, bu barədə lazımi tədbirlər görüm".

Su ehtiyatlarının səmərəli idarə olunması kənd təsərrüfatının məhsuldarlığı və davamlı inkişafı üçün həyati əhəmiyyət daşıyır. Vayxır su anbarı Naxçıvan Muxtar Respublikasının su ehtiyaclarının təmin olunması, suvarma sistemlərinin modernləşdirilməsi və əkin sahələrinin artırılması üçün əsas mənbəyə çevrilmişdir. Bu, öz növbəsində, bölgədə ərzaq təhlükəsizliyinin təmin olunmasına və kənd təsərrüfatı məhsullarının idxaldan asılılığının azaldılmasına xidmət edir. Bundan əlavə, su anbarının istifadəyə verilməsi yerli əhalinin məşğulluq imkanlarının genişləndirilməsinə, iqtisadi fəallığın artmasına və sosial rifahın yüksəlməsinə səbəb olmuşdur.



*2002-ci il avqustun 13-də Azərbaycan Prezidenti Heydər Əliyev Naxçıvan Muxtar Respublikasına səfəri zamanı Vayxır su anbarının tikintisinə həsr olunmuş müşavirədə çıxış etmişdir*

1987-1988-ci illərdən başlayaraq Azərbaycanın iqtisadi və ictimai həyatında dağıdıcı proseslər baş vermiş, xüsusilə 1990-1991 və 1992-1993-cü illərdə dəhşətli səviyyəyə çatmışdır. İqtisadiyyatın çoxsaylı sahələri sıradan çıxmış, istehsal həcmi ciddi şəkildə azalmış, sənaye və kənd təsərrüfatı sahələri geriləmişdir. Eyni zamanda, Ermənistan ərazilərimizin 20 faizini işğal etmişdir. İşğal nəticəsində yüzilliklər boyu formalaşan zəngin maddi-mədəni sərvətlərimiz dağıdılmış, münbit torpaqlarımız viran qalmışdır. Qarabağ və Arazboyu kimi kənd təsərrüfatı üçün önəmli bölgələrin işğalı iqtisadiyyatımıza zərbə vurmuş, zorla evlərindən didərgin düşmüş insanlarımızın ağır sosial problemlərlə üzləşməsinə səbəb olmuşdur. Ulu Öndər qeyd etmişdir ki, Azərbaycan iqtisadiyyatı 1987-1991-ci illərdə sürətli tənəzzül yaşadı. İldə təxminən 20 faiz azalmanın müşahidə olunduğu bu dövrdə sənaye və kənd təsərrüfatı demək olar ki, çökmə həddinə çatdı. 1994-1995-ci illərdə böyük çətinliklərlə bu prosesin qarşısı alındı və iqtisadiyyatın inkişafına yönəlmiş sistemli addımlar atıldı. Aparılan islahatlar, struktur dəyişiklikləri və bazar iqtisadiyyatına keçid Azərbayca həm daxili potensialın canlandırılması, həm də xarici sərmayələrin cəlb olunması baxımından mühüm rol oynadı. Naxçıvan Muxtar Respublikası da bu iqtisadi inkişaf prosesindən kənarda qalmadı. Ulu Öndərin vurğuladığı kimi, 2002-ci il avqustunda Naxçıvanda bolluq yarandı, ərzaq və digər istehlak malları təmin olundu. Ulu Öndər bu bolluğu Azərbaycanın bazar iqtisadiyyatına keçidi ilə bağlı böyük siyasi və iqtisadi islahatların nəticəsi kimi qiymətləndirmişdir.

Vayxır su anbarı layihəsi kənd təsərrüfatının su ilə təmin olunmasında əsas vəsaitlərdən biri olmuşdur. Bu layihə vasitəsilə Naxçıvan şəhərinə 800 millimetrlik diametrli borularla su kəməri çəkilmişdir. Heydər Əliyevin rəhbərliyi dövründə bu layihələrə göstərilən diqqət və mərkəzi büdcədən ayrılan vəsaitlərin səmərəli idarə olunması kənd təsərrüfatının inkişafına güclü təkan vermişdir. Onun Sovet İttifaqı rəhbərliyinə qarşı açıq mövqeyi və qətiyyətli çıxışları nəticəsində Azərbaycana diqqət ayrılmışdır.

Ulu Öndər demişdir: "Kanallar - o köhnə torpaq kanallar qalır - yenidən qazılır və beton işləri, dediyim kimi, yüksək keyfiyyətlə aparılır ki, heç bir yerdən su sızmasın. Çünki nə su itkisinə, nə də - burada deyildi - torpaqların şoranlaşmasına yol vermək olmaz. Burada bənd, iki kanal, 5 meqavata yaxın elektrik stansiyası, bu da sizin üçün əlavə yaxşı bir şeydir. Qalan lazımi qurğular olacaqdır. Bunlar üçün nə qədər müasir texnika, başqa nə lazımdırsa, hamısını hazırlamalısınız. Bundan sonra mənə təqdim etməlisiniz və tezliklə işə başlamalısınız. İşə başlamalısınız ki, bu gün səhər mənə dediyiniz kimi, 2004-cü ilin sonunda raport verəsiniz ki, hər şey hazırdır, yoxlanılıbdır, mən də buraya gəlim, gedək onun açılışını qeyd edək və bununla da Naxçıvanın böyük problemini həll edək".

Ulu Öndər Heydər Əliyevin siyasi uzaqgörənliyi və ardıcıl inkişaf strategiyası əsasında Naxçıvanda enerji sektorunda fundamental islahatlar həyata keçirilmişdir. Ümummilli Liderin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən 2005-ci il 2 may tarixində imzalanmış "Azərbaycan Respublikasında elektrik enerjisi təminatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam Naxçıvanın enerji təminatının gücləndirilməsində mühüm addım oldu. Bu sərəncam çərçivəsində Naxçıvan Qaz-Turbin Elektrik Stansiyasının enerji turbinləri dizel yanacağından təbii qazla işləmə rejiminə keçirildi. Eyni zamanda, stansiya və yarımstansiyanın bütün əsas avadanlıqları yenilənərək müasir standartlara uyğunlaşdırıldı. Bu islahatlar muxtar respublikanın enerji təhlükəsizliyini artırmaqla yanaşı, ətraf mühitin qorunmasına da mühüm töhfə verdi. Təbii qazla işləmə rejiminə keçid nəticəsində emissiya səviyyəsi azaldıldı, enerji səmərəliliyi yüksəldildi. 2006-cı ilin dekabrında Heydər Əliyev Su Anbarı üzərində yerləşən 4,5 meqavatlıq su elektrik stansiyası ilə yanaşı, 50 meqavat gücündə olan Naxçıvan Qaz-Turbin Elektrik Stansiyası və 87 meqavatlıq Naxçıvan Modul Elektrik Stansiyası dövlət başçısının iştirakı ilə istifadəyə verildi. Bu stansiyalar muxtar respublikanın enerji generasiya gücünün əhəmiyyətli hissəsini təşkil edir və regionun enerji balansının təmin olunmasında əsas dayaqlardandır. Müstəqillik illərində Naxçıvanda enerji sektorunda əsaslı irəliləyişlər müşahidə edilmişdir. Bu dövrdə muxtar respublikanın elektrik enerjisinin ümumi generasiya gücünə 244,8 meqavat təşkil edən 2 istilik, 5 su, 3 günəş, 1 külək-günəş hibrid və 1 külək elektrik stansiyası daxil edilmişdir. Qeyd etmək lazımdır ki, bu stansiyaların 11-i məhz müstəqillik dövründə istifadəyə verilmişdir. Stansiyalar müasir və ekoloji təmiz texnologiyalar əsasında fəaliyyət göstərərək, Naxçıvanın enerji təhlükəsizliyini təmin etməklə yanaşı, "yaşıl enerji" istehsalında da Azərbaycanın regional liderlərindən birinə çevrilməsinə səbəb olmuşdur. Bu barədə Prezident İlham Əliyev deyib: "…Naxçıvanın qazı, nefti olmasa da, Günəşi var və Naxçıvanda günəş elektrik stansiyalarının inşası ilə bağlı bizim böyük planlarımız var. Bu planlar gerçəkləşərsə, Naxçıvan yaşıl enerji zonasına çevrilə bilər. Çünki burada həm günəş, həm külək, eyni zamanda su elektrik stansiyalarının inşası üçün böyük potensial var və gələcəkdə Naxçıvandan Türkiyəyə ən azı 1000 meqavat həcmində yaşıl enerji ixracı da mümkün olacaqdır".

Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının enerji sistemində önəmli yer tutur və ölkəmizin "yaşıl enerji" istehsalında mühüm bölgələrdən biri kimi çıxış edir. Ulu Öndər Heydər Əliyevin strateji qərarları və Prezident İlham Əliyevin dəstəyi ilə həyata keçirilən layihələr regionun sosial-iqtisadi inkişafına ciddi təkan verir. Enerji sektorunda əldə edilən uğurlar muxtar respublikanın gələcəkdə davamlı və ekoloji cəhətdən təmiz enerji mənbələrinə əsaslanan inkişafına zəmin hazırlayır, həmçinin Azərbaycanın ümumi enerji balansının möhkəmlənməsinə mühüm töhfədir.

**Ləman TƏHMƏZ,**
**"Respublika".**